*İlham MUSAOĞLU*

# *Atamın yanına köçdü anam da*

***11 may 2016-cı il tarixdə vəfat etmiş anam Elmira xanımın əziz xatirəsinə***

Anam dünyasını, dəyişən zaman,
Mən onda bildim ki, yetimlik nədir.
O varlıq gözümdən, getməyir bir an,
Həyat özlüyündə puç, əfsanədir.

Anamı itirdim, qəfıldən Allah!
Söndü çırağımın, sönməz işığı.
Anamı itirdim, həmin gün vallah,
Getdi evimizin, yar-yaraşığı.

Anam da qovuşdu, əbədiyyətə,
Ömrümü anasız sürəcəyəm mən.
Yalnız inanıram, bir həqiqətə,
Nə vaxtsa anamı görəcəyəm mən.

Qəlbimi göynətdi, son dəfə səsi,
Titrək danışığı, qulağımdadır.
Başımın üstündə, iliq nəfəsi,
Ruhu daim mənim ocağımdadır.

Anama ana yox, "bacı" deyirdik,
Təkcə adı bizə, şan-şöhrət idi.
Ona başımızm, tacı deyirdik,
Anam bizdən ötrü, var-dövlət idi.

Bəlkə də, atam da, darıxıb deyə,
Atam seçən yolu, seçdi anam da.
Təsəllim odur ki, ancaq bir şeyə,
Atamın yanına köçdü anam da.

Nəzərdə tutmuşam, qoyum adını,
Özünün gələcək nəticəsinə.
Bununla da, alım, şirin dadını,
Baxıb o körpənin əyləncəsinə.

Ana müqəddəsdir, ana əzizdir,
Hər ana çöhrəsi, açır səmada.
Ana mələklər tək, pakdır, təmizdir,
Analar ölməyir, uçur səmada.

Ədalət.-2016.-5 oktyabr.-S.4.